Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F.Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Vətənpərvərlik - ən ülvi bir hissdir

**Uşaq və yeniyetmələrdə vətənpərvərlik hissilərini gücləndirmək məqsədilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı-2020**

**Tərtibçilər:** **Ruhiyyə Məmmədli**

**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
**Əməkdar mədəniyyət işçisi**

**Vətənpərvərlik - ən ülvi bir hissdir** - Uşaq və yeniyetmələrdə vətənpərvərlik hissilərini gücləndirmək məqsədilə kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün vətənpərvərlik mövzusunda hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad.Respublika Uşaq Kitabxanası; tərt.ed.R.Məmmədli; ixt.red. və burax.məsul Ş. Qəmbərova; red. K. Ağazadə. -Bakı: F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2020.- 60 s

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2020**

## Tərtibçidən

Vətən! Bu söz insanlarda daha dərin və əziz hisslər oyadır. Vətənə məhəbbət öz xalqına məhəbbətdir. Vətən uğrunda hər cür fədakarlığa hazır olmaq lazımdır. Vətənpərvərlik əsrlərlə insanların qan yaddaşına həkk olunmuş hisslərdəndir. Vətəni sevmədən, qorumadan, ata- babalarımızın keçdikləri yollara nəzər salmadan, onların qəhrəmanlıq nümunələrini öyrətmədən vətənpərvər yetirmək olmaz. Vətənə məhəbbət insanın qəlbində yaşayan, onu vətənin çiçəklənməsinə istiqamətləndirən ən güclü mənəvi- əxlaqi hissdir. Bu hissi hələ uşaqlıq illərindən aşılamaq başlıca vəzifədir. Hərbi-vətənpərvərlik tərbiyəsi bu gün böyük əhəmiyyətə malikdir. Dağlıq Qarabağ münaqişəsi ilə bağlı müstəqil respublikamızın bugünkü durumu bunu bizdən tələb edir. Zəngin tarixi keçmişimizdən tutmuş bugünkü tariximizə qədər gənc nəslə örnək olası kifayət qədər qəhrəmanlıq səhifələrimiz var. Gənclərimizi Koroğlu, Babək, Cavanşir, Mübariz və s. ruhunda tərbiyələndirmək ümdə vəzifəmiz olmalıdır. Bu baxımdan gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması, hər bir oxucunun milli soykökümüzə, tariximizə, folklorumuza, min illərdən bəri xalqımızın yaratdığı mənəvi dəyərlərə dərindən yiyələnməsi üçün uşaq kitabxanalarında geniş imkanlar var.

Vətənpərvərlik ən ülvi bir hissdir. Bu gözəl və nəcib əxlaqi keyfiyyəti gələcəyin qurucularına aşılamaq biz kitabxanaçıların borcudur. Bu metodik vəsait məktəbli oxucular arasında hərbi-vətənpərəvrliyə aid ədəbiyyatın təbliğində uşaq kitabxanalarında çalışan kitabxanaçılara köməklik məqsədilə tərtib edilib.Vəsait 2 hissədən ibarətdir:

I. Vətənpərvərlik tərbiyəsi -ümummilli xilas yolumuzdur.
II.Vətənpərvərlik tərbiyəsi ilə bağlı keçiriləcək tədbirlər.

## *Vətənpərvərlik tərbiyəsi -ümummilli xilas yolumuzdur*

Vətən onun gözəlliyinin şahidi olan atlas çəmənlərdən, dibi görünməyən yamyaşıl meşələrdən, durna gözlü bulaqlardan, çoşqun çaylardan, mavi göllərdən başlanır. Vətən müqəddəsdir, ülvidir. Onun hər şeyi, dağı, daşı, torpağı, suyu, səması bizim üçün əzizdir, doğmadır. Əgər öz yaşadığın yerin, oxuyub təhsil aldığın, boya-başa çatdığın torpağın keçmişini, bu gününü yaxşı bilməsən, onun sərvətini qorumaq, çoxaltmaq və gələcək nəsillərə saxlamaq qayğısına qalmasan, sən əsl vətəndaş ola bilməzsən.

Vətən…Bu kəlmə nə qədər də mənalı və dərindir. Deyilişi şirin olduğu kimi, məzmunu, qayəsi də yüksək və hikmətlidir. Biz ana dedikde vətəni, vətən dedikdə anamızı düşünürük. Çünki vətən də bizə anamız qədər doğma, anamız qədər əzizdir. Ana müqəddəsliyi vətən müqəddəsliyi, vətən ucalığıdır.

Azərbaycanımızın gözəllikləri haqqında şairlərimiz, yazıçılarımız çoxlu əsərlər yazmış, bəstəkarlarımız mahnılar bəstələmişlər. Vətən sevgisi əzəli və əbədi bir qəlb odudur, heç vaxt öz təravətini və gücünü itirmir və elə buna görədir ki, insan bu sevgiyə köklənəndə dünyanın bütün gücü onun qoluna toplanır, göyün bütün işığı və nuru onun qəlbinə, fikrinə dolur. Biz bütün qəlbimizlə Azərbaycan torpağına bağlıyıq. Onun fərəhi bizim fərəhimiz, onun kədəri bizim kədərimizdir.

İnsan qəlbinin ən böyük nəğməsi Vətən nəğməsidir. Sonsuz əngəlliklərə, doğma torpağa dikilmiş bütün məhəbbətli gözlər, hələ beşikdə çırpınan balaca körpələrimizin ürək qəlbləri ancaq bu nəğməni zümzümə edir. Bu nəğməni hərə bir cür oxuyur. Onu döyüş harayi, Koroğlu nərəsi, qılınc zərbəsi ilə də oxuyanlar olub.

Bulaq pıçıltısı, qadın isməti, Nigar vəfası, Həcər sədaqəti ilə oxuyanlar da.

Vətən sevgisi nədir? İlk baxışdan mücərrəd görünən bu anlayış əslində konkret əməllərdə təzahür edir. Vətəni sevmək,Vətən naminə yaşamaq, ona xidmət göstərmək üçün hansısa seçilmiş bir sənət, peşə sahibi olmağa lüzum yoxdur. Fəhlə də, həkim də, alim də Vətən üçün yaşaya, öz əməli ilə Vətənin şöhrətini artıra bilər. Kifayətdir ki, ürəkdə təpər, istək, təəssübkeşlik olsun. Əsgər döyüş meydanlarında vuruşur, Vətən qarşısında borcunu səngərdə yerinə yetirir. Fəhlənin, mühəndisin əməyi ilə məmləkətin iqtisadi qüdrəti artır. Alim əməyi isə Vətən üçün Günəş işığı ilə müqayisə edilə bilər. Vətəndaşlıq borcu ilk növbədə insanın yaşadığı torpaqla, Vətənlə bağlıdır.Vətən borcu vətəndaşlıq borcudur. Vətən torpağı bizim üçün səcdəgahdır,
toxunulmazdır, müqəddəsdir. Əsl vətəndaş odur ki, öz vətənini öz qəlbi ilə, canı və qanı ilə sevir. Onun azadlıq və istiqlaliyyəti uğrunda hər an canını qurban verməyə hazırdır. Vətən uğrunda canından keçən qəhrəmanlar əbədi bir həyata qovuşur, şərəfli şəhid adı qazanırlar. Bu vətən övladları doğma yurda sədaqət rəmzi, məhəbbət sinvoludurlar. Onlar Vətən torpağı uğrunda vuruşmuş, onun bölünməzliyı uğrunda canlarını qurban vermişlər!

Eşq olsun belə qəhrəmanlar! Eşq olsun onların amalına! Bax budur əsl vətəndaşlıq borcu, vətəndaşlıq amalı.

Biz "Vətən" anlayışını müqəddəsliyini dahi Üzeyirin "Koroğlu" uvertürasını dinləyəndən, Sabiri, Mirzə Cəlili oxuyub dərk etməyə başlayanda duyuruq. Bu müqəddəslik bizim qəlbimizə ana laylası, ana zümzüməsi ilə axıb gəlir.

Vətən təkcə torpaq, yurd-yuva deyil. Vətən bizik, hamımızıq. Onun dünəninə, bu gününə və sabahına da

hamımız cavabdehik: əməyimizlə, lazım gəlsə canımızla və qanımızla. Bu müqəddəs məkanda keçmişlə gələcəyimiz qovuşur. O əbədi və əzəlidir. Onun göylərində əcdadlaımızın ruhu dolaşır. Vətəni bizlərə babalarımız ərmağan etmişlər. Əcdadlarımız onun uğrunda vuruşmuş, onu qorumuşlar.

Vətənpərvərlik insanda fədakarlıq, qəhrəmanlıq və məğlubedilməzlık hissi yaradır, apardığı mübarizədə onda inam hissini gücləndirir. Vətənpərvərlik qəhrəmanlığın əsasını qoyan amildir. Olduqca geniş mənaya malik olan vətənpərvərlik anlayışı özündə vətənə, millətə sevgi hissini, müxtəlif səviyyə və istiqamətlərdə vətənə, millətə xidmət etməyi birləşdirirsə, bunların zirvəsində Vətən üçün ölümə hazır olmaq dayanır. Bu vətənpərvərliyin ən uca və ali formasıdır. Bəşər övladı Vətənə xidmət etməyin bundan uca zirvəsini kəşf etməmişdir. Vətənpərvərlik məsələsi cəmiyyətdə daim aktual olmuş, bu gün də aktual olaraq qalır. Millətin vətənpərvərliyi onun tamlığının, bütövlüyünün təməli desək, yəqin ki, səhv etmərik. Bir xalqın, millətin vətənpərvərlik şüuru onun digər xalqlar və millətlər tərəfindən qəbul edilməsi, tanınması, hörmətlə qarşılanması, ən əsası isə o xalqın yaratdığı dövlətin bütövlüyü, varlığı, suverenliyi ilə ölçülür. Əgər biz tarixi keçmişimizə nəzər salsaq, görərik ki, doğma yurdumuz Azərbaycanın igid, cəsur oğulları, qeyrətli qızları həmişə vətənpərvər olmuş, işğalçılara qarşı qəhrəmancasına mübarizə apararaq, Vətənimizi düşmən ayağına verməmişlər. Mərd, mübariz oğul və qızlarımız doğma Vətəni həmişə hərarətlə sevmiş, onun qədrini bilmiş, Vətən naminə canlarını qurban verməkdən çəkinməmişlər. Azərbaycan xalqının igid oğullarından Cavanşirin, Babəkin, Koroğlunun yadelli işğalçılara qarşı mübarizəsi tarixi keçmişimizdirsə, bu günümüzün qəhrəmanlıq tarixini

bəzəyən oğul və qızlar son dövrlərin Qarabağ savaşının qəhrəmanları, ölümləri ilə ölümsüzlüyə qovuşan şəhidlərdir. Bəs Vətən sevgisi nədir? Üzərində həyat sürdüyümüz bu torpaq üçün lazım gələndə həyatını, sahib olduğu hər şeyi Vətən yolunda düşünmədən fəda edə bilmək duyğusunun təcəssümüdür Vətən sevgisi. Vətən sevgisi ən əsil, ən uca sevgidir. Məqamı gəlincə Vətən üçün döyüşmək də Vətən sevgisinin bir təzahürüdür. Unutmamalıyıq ki, biz Vətən uğrunda qanlarıyla dastanlar yazanların, şəhidlər verən bir millətin övladlarıyıq.

Ümummilli liderimiz Heydər Əliyev Azərbaycanın gələcəyı olan gənc nəslin vətənə məhəbbət, xalqa, elinə və obasına hörmət, soykökünə, ata-babalarının ənənələrinə sədaqət ruhunda tərbiyə olunmasına həmişə böyük məsuliyyətlə yanaşmış və ona həyatı əhəmiyyətli məsələ kimi baxmışdır. Biz şanlı tariximizlə, əfsanəvi qəhrəmanlarımızla həmişə fəxr edirik. Cavanşır, Babək, Şah İsmayıl Xətai, Səmədağa Mehmandarov, Əliağa Şıxlinski, Cəmşid bəy Naxçıvanski, Həzi Aslanov, İsrafil Məmmədov, Mehdi Hüseynzadə kimi igid və cəsur sərkədələrimizin şəxsi nümunəsi bizə əsas verir deyək ki, Azərbaycan xalqı qəhrəman xalqdır. Və bu xalq öz vətənini göz bəbəyi kimi qorumağa hazır olan mətin gənclər yetirmişdir. Erməni qəsbkarlarına qarşı ölüm-dirim savaşında həlak olmuş qəhrəmanlarımızın ibrətamiz həyatı, şəxsi nümunəsi apardığımız hərbi vətənpərvərlik tərbiyəsi işində ön plana keçməlidir. Respublikamızın ümumtəhsil, orta ixtisas və ali məktəblərində tədris olunan təbiət və cəmiyyət elmlərinin, humanitar fənlərin, ümumilikdə bütün fənlərin gənclərdə hərbi-vətənpərvərlik hissləri aşılamaq üçün çox böyük imkanları vardır. Gənclərdə hərbi- vətənpərvərlik tərbiyəsini o zaman daha yaxşı aşılamaq mümkündür ki, orta məktəbin X-XI siniflərində oxuyan şagirdlərə və alı məktəbdə təhsil alan tələbə-gənclərə ayrı-

ayrı fənləri və ixtisas kurslarını tədris edərkən hərbi məzmunlu biliklər də verilsin. Keçmiş Sovetlər birliyi dövründə mövcud dərsliklərdə, dərs vəsaitlərində və metodik ədəbiyyatda hərbi vətənpərvərlik hissləri aşılayan məlumatlar və hərbi məzmunlu biliklər məxfilik üzündən verilmirdi. Əslində bu, bilərəkdən ona görə edilirdi ki, gənclər vətənpərvərlik duyğularından məhrum olsunlar, vətənin müdafiəsi üçün lazımi bilikləri almasınlar. Artıq bu gün müstəqil respublikamızın inkişafı, ilk növbədə, böyüyən nəslin təlim-tərbiyə işinin düzgün təşkilindən, vətəndaşlıq hazırlığından asılıdır. Uşaqların bir vətəndaş kimi böyüməsində ailənin, cəmiyyətin- ümumilikdə mühitin rolu böyükdür. Uşaqlar bir insan kimi, vətəndaş kimi ilk tərbiyəni ailədən alır. Burada onlar əxlaqi-mənəvi keyfiyyətləri, fiziki möhkəmliyi, əmək vərdişlərini, davranış qaydalarını, bədii-estetik duyumu və s. kimi keyfiyyətləri qazanır. Tərbiyənin əsas məqsədi kamil şəxsiyyət-insan- vətəndaş yetişdirməkdir. Vətəndaş tərbiyə etmək mənsub olduğu dövlətin inkişafına çalışan, mənafeyini gözləyən, onun təhlükəsizliyi üçün məsuliyyət daşıyan, ölkənin yüksəlişində iştirak edən insan yetişdirmək deməkdir. İnsan fərd kimi doğulub, vətəndaş kimi fəaliyyət göstərərək tərbiyə-təhsil və əmək proseslərində vətəndaş hazırlığı keçir. Əsl vətəndaş dedikdə, bilavasitə vətənə, dövlətə gərəkli fəaliyyəti ilə xidmət edən, böyük mənəvi keyfiyyətlərə malik olan insan nəzərdə tutulur. Vətəndaşlıq tərbiyəsinin mənbəyi ailədir. Təcrübə göstərir ki, ailədə vətəndaşlıq tərbiyəsi kor-koranə deyil, planlı, sistemli, məqsədli şəkildə təşkil olunmalıdır. Uşaqların vətəndaşlıq tərbiyəsi dedikdə, yüksək əxlaqi, mənəvi keyfiyyətlərə yiyələnmə və şəxsiyyət kimi yetişməsi nəzərdə tutulur. Onlar nizam-intizamlı, savadlı olmalı, hər zaman nümunəvi davranmalı, vətənin tarixini, coğrafiyasını, xalqının mədəniyyətini, milli adət- ənənələrini bilməli, bu torpağin hər daşını belə

sevməlıdirlər. Bu sahədə biz kitabxanaçıların da üzərinə çox böyük məsuliyyət düşür. Uşaq kitabxanalarında çalışan hər birimiz anlamalıyıq ki, uşaqlar savadlı olmalı, işə şüurlu yanaşmalı, məsuliyyətli, vicdanlı, mübariz ruhda böyüməli, pis niyyətlə, əliəyriliklə barışmamalıdırlar. Azərbaycan Respublikasında hüquqi, demokratik dövlət quruculuğu inkişaf etdikcə vətənpərvərlik tərbiyəsinə, o cümlədən böyüməkdə olan nəslin hərbi vətənpərvərlik tərbiyəsinə xüsusi diqqət yetirilməlidir. Böyük Atatürk deyirdi ki, sülh istəyən xalq hərbə hazır olmalıdır. Bu çox dəyərli kəlamdır. Azərbaycan xalqı müharibəni arzulamır, həmişə sülhün, əmin-amanlığın tərəfdarı olmuşdur. Hərbi – vətənpərvərlik tərbiyəsini quru sözlərlə, nəsihətlərlə də məhdudlaşdırmaq olmaz. Müstəqil Azərbaycan dövlətinin qorunub saxlanılması, onun tərəqqisi naminə gələcəyin qurucuları olan bügünkü nəslin əsl vətəndaş kimi yetişməsi üçün, biz kitabxanaçılar xalqımızın keçmişini mükəmməl öyrənməyə səy göstərən məktəbliləri torpaqlarımızın bütövlüyü və toxunulmazlığı, azadlığı və müstəqilliyi yolunda qəhrəmancasına həlak olmuş şəhidlərimizin həyat və döyüş yollarını əks etdirən kitablarla tanış etməli, öz şərəfli ölümləri ilə ölümsüzlük zirvəsini fəth etmiş oğullarımızın qısa, lakin mənalı həyat yolları haqqında ətraflı məlumat verməliyik.

## II.Vətənpərvərlik tərbiyəsi ilə bağlı keçiriləcək tədbirlər

İnsana məxsus yüksək mənəvi keyfiyyətlər sırasında vətənpərvərlik hissi mühüm yer tutur. Bu müqəddəs hissin lap kiçik yaşlardan aşılanması böyük əhəmiyyət kəsb edir. Bu sahədə məqsədəuyğun nəticə əldə etmək üçün uşaq tərbəyə müəssisələrilə, məktəblərlə yanaşı, kitabxana da, hər şeydən əvvəl, öz işini düzgün planlaşdırmalı, il ərzində görəcəyi işləri qabaqcadan müəyyənləşdirməlidir. Burada

tədbirlər arasında yaradılacaq əlaqə nəzərə alınmalı, işin təşkili əsaslandırılmalıdır. Belə ki, uşaqların vətənpərvərlik tərbiyəsinin kitabxanalarda təbliği oxucularla aparılacaq söhbətlər, keçiriləcək tədbirlər öncədən planlaşdırılmalıdır. Bu məqsədlə kitabxanada söhbət, oxucu konfransı, ədəbi-bədii gecə və sair keçirmək olar. Bu gün kitabxana hərbi-vətənpərvərlik anlayışını oxuculara necə çatdırmalıdır? Bunun üçün ilk növbədə uşaq və yeniyetmələrdə müharibə ilə bağlı təsəvvür yaratmaq məqsədilə sərgi təşkil olunmalıdır. Sərgidə kitab, qəzet və jurnal məqalələri ilə yanaşı, hərbi-vətənpərvərlik mövzusuna həsr olunmuş şəkillər və foto-şəkillər də nümayiş oluna bilər. Orada ədəbiyyat siyahısı asmaq və kartoteka qutusu da qoymaq olar. Sərgi aşağıdakı başlıqlar altında təşkil oluna bilər: “Vətənpərvərlik tərbiyəsi ümummilli xilas yolumuzdur”, “Tariximizin şanlı səhifələri”, “Heç kim və heç nə unudulmur”, “Qəhrəmanlıq zirvəsinə ucalanlar”, “Vətən bizi çağırır”, “Vətənpərvərlik - ən ülvi bir hissdir” və s. Sərgidə görkəmli şəxsiyyətlərin vətənpərvərlik haqqında söylədikləri fikirlərdən, sitatlardan istifadə etmək sərgini daha da məzmunlu və dolğun edər.













MUSTAFA ÇƏMƏNLİ
MÜBARİZ


KRİMİNAL
ELXAN ELATLI
Cəhənnəmdən
gələn səs


ƏLİ EYVAZOV
BİR BATALYONUN
TARİXİ


TAHİR PAŞA
BEŞ GÜRZƏ,...


XƏZAİL MUXTAROV
MÜHARİBƏ SƏNƏTİ


Etibar Muradxanlı
Siz
MÜHASİRƏDƏSİNİZ, LEYTENANT


Nizami Mirzə
QATİL
Bakı – 2006


SABİR ARAZLI ÖZGÜN
TANKÇI VALEH


Hərbi macəra kitabxanası
Ramiz CƏFƏROV
İKİQAT
MÜHASİRƏ


Oqtay Əliyev
Azərbaycanın
Milli Qəhrəmanı
ƏBƏDİYYƏTƏ
QOVUŞAN KOROĞLU


SEVİNC NURUQIZI
QİSAS


ANAMA
DEMƏYİN


KƏRİM SƏLİMOV
MÜCAHİD ŞAHİN


Mustafa Çəmənli
Fred
Asif


Fazil Güney
QARA QAN
1


Fazil Güney
QARA QAN
2


HACI ƏKBƏR RÜSTƏMOV
QALX AYAĞA,
VƏTƏN OĞLU!


AQİL ABBAS
DOLU


YUSİF ƏHMƏDOV
TORPAĞA
TÖKÜLƏN
QAN


Bəhlül Oruc
KÜSKÜN RUHLAR


BAHAR SONAM
QƏTL


XOCALI UŞAQLARI
QAN İÇİNDƏ QAR ÇİÇƏYİ


ELXAN ELATLI
Milli
Qəhrəman
Mübariz
İbrahimov
haqqında
roman
Qisas
gecəsi


BAHAR SONAM
SAHİBSİZLİK


GÜLXANİ PƏNAH
QARABAĞ
DƏRDİ


ƏLİSƏFA
AZAYEV
Qanlı
GÜNDƏLİK


ARZU
HACIZADƏ
BİR CÜT YARPAQ


Müslüm Əlioğlu
Gerçəkləşən
Xəyallar
Fərari-2
Ssenari-roman


əsir
QADIN...
Meyxoş
Abdullah


Mahirə Abdulla
Əvvəl
Axır


Ağarəhim RƏHİMOV
ROMANLAR


ƏLÖVSƏT MURAD
AYRILIQ ÖLÜM
DEYİL

**Sərgidə görkəmli şəxsiyyətlərin vətənpərvərlik haqqında söylədiyi kəlamlardan, atalar sözlərindən istifadə edilir.**

Hamımızın ümumi vəzifəmiz xalqımızda vətənpərvərlik, Vətən torpağına, millətə sədaqət, Vətən uğrunda şəhidliyə hazır olmaq hisslərini formalaşdırmaq, inkişaf etdirmək və təbliğ etməkdir.

Azərbaycanın dövlət müstəqilliyi tarixi hadisədir, Azərbaycan xalqının tarixi nailiyyətidir. Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, əbədidir və bizim borcumuz dövlət müstəqilliyini, əldə etdiyimiz milli azadlığı daim qoruyub saxlamaqdır. Bizim vəzifəmiz bu müstəqilliyi möhkəmləndirməkdən və gələcək nəsillərə müstəqil, qüdrətli Azərbaycan dövləti çatdırmaqdan ibarətdir.

**Ümummilli lider Heydər Əliyev**

Dağlıq Qarabağ bizim torpağımızdır, tarixi Azərbaycan torpağıdır və biz onu istənilən yolla, istənilən vasitə ilə işğaldan azad etməliyik. Ona görə də iqtisadiyyat daha da inkişaf etməli, daha güclü ordu yaranmalı, gənclərimiz hərbi vətənpərvərlik ruhunda daha yüksək dərəcədə tərbiyə olunmalıdırlar".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Əsil yüksək əxlaqlı, xeyirxah adam yalnız o adam hesab edilə bilər ki, o, özünün bütün hərəkət və davranışlarını əsil vətənpərvərliklə uyğunlaşdırsın.

**Azərbaycan dramaturgiyasının banisi M.F.Axundzadə**

Vətənin qədrini o kimsə bilər ki, vətən ilə onun ruhən rabitəsi olsun, vətən ilə bir yerdə ağlasın, bir yerdə gülsün.

**İctimai-siyasi xadim,yazıçı N.Nərimanov**

Namuslu insan olmaq istəyirsənsə, ömrünün mənasını vətənə xidmətdə gör.

**Rus dramaturqu D.İ.Fonvizin**

Özünü vətəndaş zənn edən bir kəs Vətənin dərdinə yad qala bilməz!

**Rus şairi N. A. Nekrasov**

Həqiqi namuslu insan ailəsini özündən, vətənini ailəsindən, insanlığı isə Vətənindən uca tutmalıdır.

**Fransız riyaziyyatçısı J. L. Dalamber**

Vətən uğrunda ölüm həyatın davamıdır.

**Qazax şairi Cambul Cabayev**

Vətənin böyüklüyü onun siravi vətəndaşlarının böyüklüyü ilə müəyyən olunur.

Vətənpərvərlik - ən dərin hörmətə layiq gözəl bir keyfiyyətdir.

Vətəni olmayan insan nəğmə oxuya bilməyən bülbül kimidir.

İnsanın ləyaqəti onun vətənpərvərliyinin gücü ilə ölçülür.

Müasir dövrümüzdə uşaq kitabxanalarının qarşısında duran əsas vəzifələrdən biri də gənc nəslə vətənpərvərlik hissləri aşılamaqdır. Bu baxımdan uşaq kitabxanalarında oxucularla

aparılan fərdi söhbətlərin əhəmiyyəti böyükdür. Kiçik və orta yaş oxucular arasında müharibə mövzusunda “dəyirmi masa”lar təşkil etmək, söhbətlər aparmaq əhəmiyyətli olar. Söhbət apararkən oxucuların yaş həddi nəzərə alinmali çıxışlar zamanı dilin sadə və aydınlığına diqqət yetirilməlidir. Bu zaman müharibə mövzusu ilə bağlı yazıçı və şairlərimizin gözəl əsərlərindən istifadə etmək yaxşı olar. Məsələn, Ə. Cəmilin “Can nənə bir nağıl de...” şeirini, Ə. Məmmədxanlının “Buz heykəl”, T. Hüseynovun “Qolsuz kukla”, Ə. Hacızadənin “İki əsgər”, S. Nuruqızının “Qisas”, Ə. Quluzadənin “Qadan mənə Qarabağ”, E.Elatlının “Qisas gecəsi”, S. Müslümqızının “Onlar heç vaxt böyüməyəcək”, G. İbrahimovanın “Evin kişisi” hekayələrini oxumağı uşaqlara təbliğ etmək məqsədilə kitabların icmalını keçirmək lazımdır. Orta yaş qrupuna aid oxucular arasında “Müharibə uşaqların gözü ilə” mövzusunda rəsm müsabiqəsi keçirmək əhəmiyyətli olar. Müsabiqə keçirilməzdən əvvəl kitabxanaçı oxucuları mövzu haqqında məlumatlandırmalı, uşaqlara şərait yaratmalıdır ki, onlar öz düşüncələrini çəkdikləri şəkillərdə əks etdirə bilsinlər. Müsabiqənin qalibləri sərgiyə tamaşa edən uşaqlar arasında aparılan sərbəst səsvermənin nəticələri ilə müəyyən olunur. Bunun üçün əl işləri əvvəlcədən nömrələnir, kitabxananın oxu zalında divardan və yaxud rəsm sərgisi üçün nəzərdə tutulan guşədə asılır. Sonra müsabiqə günü təyin olunur və elan kitabxananın girəcəyində divara vurulur. Tədbirdə oxucular bəyəndikləri işlərin nömrəsinə uyğun olaraq 1, 2, 3-cü yerlərin qaliblərinə səs verirlər. Ən çox səs toplayan iştirakçılar– müsabiqənin qalibləri tutduqları yerə görə kitabxana rəhbərliyi tərəfindən hədiyyələrlə mükafatlandırılırlar. Bundan başqa, kitabxanada orta və böyük yaş qrupuna aid oxucular üçün milli qəhrəmanlarımızla, müharibə veteranları ilə görüş təşkil etmək maraqlı olar. Çünki uşaqlar görüşdə müharibənin

canlı şahidləri ilə yaxından tanış olar, kitablardan oxuduqları, filmlərdən gördükləri hadisələri bir daha onların dilindən eşidərlər. Kitabxanaçı tədbirə dəvət olunan veteranlarla əvvəlcədən görüşərək, vaxtı müəyyənləşdirməlidir. Görüşün sərginin təşkili oldunğu yerdə keçirilməsi çox zəruridir. Bundan əlavə, yaxşı olar ki, sərgidə görüşə dəvət olunan veteranlar haqqında məqalələr nümayiş olunsun. Aparıcı görüşə çağrılan şəxs haqqında məlumatlar toplamalı, bu məlumatlar əsasında çıxış edərək onları oxuculara təqdim etməlidir. Bundan sonra qonağa söz verilir. Görüşün sonunda oxucular qonağa suallarla müraciət edə bilər. Məsələn:

1. **Sizin fikrinizcə vətənpərvər kimdir?**

☺ ------------------------------------------------------------

2. **Vətəni nə üçün sevmək lazımdır?**

☺ ________________________________

3. **Siz böyüyəndə hansı sənəti seçəcəksiniz və öz sənətinizlə xalqımız üçün nə kimi işlər görərdiniz?**

☺ ________________________________

4. **Yaxşı insan kimdir?**

☺ ________________________________

5. **Valıdeynlərinizi nə üçün sevirsiniz?**

☺ ________________________________

6. **Vətəndaşlıq borcu nədir?**

☺ ________________________________

**7. Vətən uğrunda canlarından keçən şəhidlərimizi necə yad edirsiniz?**

☺ ______________________________

**8. 20 Yanvar faciəsi neçənci ildə və nə üçün baş verib?**

☺ ______________________________

**9. Xocalı faciəsindən neçə il ötür?**

☺ ______________________________

**10. Azərbaycanlı Sovet İttifaqı qəhrəmanlarından, Milli qəhrəmanlarımızdan kimlərin adını çəkə bilərsiniz?**

☺ ______________________________

Yuxarı sinif şagirdləri arasinda vətəndaşlıq hissinin təbliği formalarından biri də rəy sorğularıdır. Rəy sorğusunun nümunəsini təqdim edirik.

**1. Vətənpərvərlik nədir?**

A) vətənə məhəbbət ,
B) vətəni hər yerdə təbliğ etmək,
C) vətəni qorumaq,
D) daxili hiss,
E) ailəyə, cəmiyyətə, ümumiyyətlə Azərbaycana olan məhəbəbbət.

**2. Öz yaşıdlarınızın vətənpərvərlik hisslərini necə qiymətləndirirsiz?**

A) ürəkaçan deyil,
B) ürəkaçandır,
C) zaman keçdikcə daha yaxşı olacaq,
D) hazırda bu hiss olduqca güclüdür.
E) ☺ ..................................................................

**3. Vətənpərvərlik hissi necə formalaşmalıdır?**

A) ailədə.

B) uşaq baxçasında, orta məktəbdə,

C) ali təhsil ocaqlarında,

D) ictimai təsisatlar vasitəsilə,

E) insanın öz daxilində,

F) hər yerdə, cəmiyyətdə, hərtərəfli və s.

**4. Gənclərdə vətənpərvərlik hisslərinin artırılması üçün nə edilməlidir?**

A) heç bir şey,

B) o daxildə formalaşmalıdır,

C) orta məktəblərdə təbliğ edilməlidir,

D) bu iş televiziya və radiolarda güclənməlidir ,

E) mədəniyyət ocaqları vasitəsilə,

F) uşaqların valideynlər tərəfindən düzgün tərbiyəsi.

**5. Sizcə uşaq və yeniyetmələrdə vətənpərvərliyin inkişafı üçün nə etmək lazımdır?**

A) onlar vətənə ürəkdən bağlanmalı, doğma yurdu ürəkdən sevməlidirlər,

B) daxili təşəbbüs göstərilməlidir,

C) birləşməlidirlər,

D) dərnək və klublar yaratmalıdırlar,

E) heç bir şey etməməlidirlər,

F) bacardığını etməli, döyüşə getməli, təbliğat aparmalı, özünü dərk etməli, örnək olmalı, düşmənləri qırmalı və lazim gələrsə Vətən uğrunda şəhid olmalıdırlar.

**6. Son vaxtlar vətənpərvərlik mövzusunda hansı əsərləri oxumusunuz?**

B. Vahabzadə "Şəhidlər" poemasını, N. Məmmədlinin "Zəngulə"povestini, Z. Yaqubun "Xocalı" poemasını, S. Nuruqızının "Qisas", Ə. Quluzadənin "Qadan mənə Qarabağ", E.Elatlının "Qisas gecəsi", S. Müslümqızının "Onlar heç vaxt böyüməyəcək", G. İbrahimovanın "Evin kişisi", Ə. Cəmilin "Can nənə bir nağıl de..." şeirini, Ə. Məmmədxanlı "Buz heykəl" və digər əsərlri.

☺ ..........................................................................................

**7. Vətənpərvərlik mövzusunda yazan yazıçılardan, şairlərdən kimləri tanıyırsınız?**

**S.Vurğun, Ə.Cavad, Ə.Məmmədxanlı, Ə. Cəmil, B.Vahabzadə, E.Elatlı, S.Müslümqızı, N.Məmmədli və başqalarını.**

☺ ..............................................................................................

Kiçik yaşlı uşaqlara isə vətənpərvərlik hissi bir neçə yolla aşılanır. Kitabxanaçılar uşaqlarda Vətənə, onun başı qarlı dağlarına, bol-bəhrəli düzlərinə, min cür nemət yetirən müqəddəs torpağına, durnagözlü bulaqlarına, ucu-bucağı görünməyən meşələrinə məhəbbət hissi tərbiyə etmək işində bədii əsərlərdən, söhbətlərdən, musiqi əsərlərindən, ekskursiyalardan, foto-albomlardan, rəsm müsabiqələrindən, ucadan oxudan geniş istifadə etməlidir. Bu oxucular vətən haqqında bilgilərini ilk əvvəl ailədə, uşaq bağçasında, sonra məktəbdə, daha sonra kitabxanalarda zənginləşdirirlər. Bu məqsədlə hərbi-vətənpərvərlik tərbiyəsinə diqqətlə yanaşmaq lazımdır. Uşaqları xalqımızın adət-ənənələri və sərvətlərilə tanış etmək, vətəni qorumağın hər kəsin müqəddəs borcu olduğunu onlara başa salmaq lazımdır.

Məktəbəqədər yaşlı uşaqlarda vətənpərvərlik tərbiyəsini formalaşdırmaq üçün ilk əvvəl onlara Vətənin gözəlliklərindən danışmalı, Vətənin təbiətini sevməyi öyrətmək lazımdır. 3 yaşından başlayaraq uşaqlara Vətən haqqında şeirlər əzbərlətməli, nağıllar oxunmalı, qəhrəmanlardan danışılmalıdır. Uşaqların yaşlarını nəzərə alıb sadə və qısa başlıqlı sərgilər tərtib etmək lazımdır. Sərgilərə “Azərbaycan – Vətənim mənim”, “Azərbaycan

qəhrəmanlar yurdudur", "Vətənpərvərlik tərbiyəsi ümummilli xilas yolumuzdur", "Doğma yurda bağlılıq Vətən sevgisindən qaynaqlanır", "Biz Milli Ordumuzla fəxr edirik" adı vermək olar. Uşaqlar üçün sərgi təşkil edərkən alim, yazıçı və şairlərimizin vətən haqqında yazdığı müxtəlif kitablardan və eyni zamanda vətənə aid şeir parçalarından, milli qəhrəmanlarımızın şəkillərindən istifadə oluna bilər. Sərgilər hazır olduqdan sonra tədbirlər keçirmək olar. Azyaşlı uşaqlar üçün təşkil edilən tədbirlərin ən maraqlısı səhərcikdir. Səhərciyin uşaqlar üçün əhəmiyyəti böyükdür. "Vətən" (Abbas Səhhət), "Öz vətənimdir" (Mirvarid Dilbazi), "Azərbaycan" (Səməd Vurğun), "Bir parça torpaq" (Əli Səmədli), "Vətəni də sevirəm" (Rafiq Yusifoğlu), "Ey anam, Azərbaycan" (Hikmət Ziya) və "Qaranquş" (Xəlil Rza Ulutürk) şeirləri üzrə səhərciyin və ucadan oxunun hazırlanması daha yaxşı olar.

Əli Səmədlinin "Bir parça torpaq" hekayəsi üzrə hazırlanmış səhərcik məktəb yaşlı oxucular üçün daha maraqlı olar. Kitabxanaçı əvvəlcə hekayəni oxucuların mütaliəsinə verməli, sonra sinif rəhbərlərinin köməyi ilə tədbiri birgə həyata keçirməlidir. Yaxşı olar ki səhərcik kitabxananın nağıl otağında keçirilsin. Səhərcik aşağıdakı kimi hazırlana bilər. Səhnə hekayəyə uyğun dekorasiyalarla bəzədilir. Uşaqlar hekayənin qəhrəmanlarının libasında səhnəyə daxil olurlar.

Kitabxanaçı: - Bir gün düşmən öz pis niyyəti ilə kəsdirdi qapını. Mahalın igidləri silaha sarılıb atıldılar at üstünə. Böyük ata "səbr edin görək, igidlərim", dedi. İgidlər dayandı. Düşmən elçiləri gəlib çıxdı.

Böyük ata: - Xaqanınız nə istəyir?

Elçi: -Ulu Xaqanımız xərac istəyir.
Kitabxanaçı: -İgidlər hiddətləndi bu sözlərdən. Böyük ata sakitləşdirdi onları.
Böyük ata: -Verin, igidlərim, təki dava olmasın.
Kitabxanaçı: - Elci yenə gəldi.
Böyük ata: -İndi tələbiniz nədir?
Elçi: -Ulu Xaqanımız sizin şəxsi döyüş atınızı istəyir.
Kitabxanaçı: - İgidlər bu sözləri eşitdikdən sonra "biz dava istəyirik" bağırdılar.
Böyük ata: -Verin, igidlərim, təki qan-qada olmasın.
Kitabxanaçı: - Elci yenə gəldi.
Böyük ata: - Daha nə istəyirsiniz?
Elçi: - Ulu Xaqanımız sizin yeganə oğlunuzu özünə nökər etmək istəyir.
Kitabxanaçı: -İgidlər yenə qışqırdılar. Böyük ata sakitləşdirdi onları.
Böyük ata: -Verin, bu davada öləcək igidlərimiz mənim bir oğlumdan heç də artıq deyil.
Kitabxanaçı: - Böyük ata sevindi ki, bununla qan-qada sovuşub getdi, amma belə olmadı. Elçilər yenidən gəldi.
Böyük ata: - İndi nə istəyirsiniz?
Elçi: -Ulu Xaqanımız mahalınızdan məskən salmaq üçün bir parça torpaq istəyir.
Böyük ata: - Ən böyük sərvət bir parça torpaqdır, böyük qeyrətdir bir parça torpaq. Haydı, mənim igidlərim! Düşmən həddini aşdı! Ona aman verməyin! At mənim idi verdim, oğul mənim idi verdim, torpaq isə xalqındır. Onun bir qarışını belə verə bilmərəm!
Kitabxanaçı: İgidlər Böyük atanın sözündən sonra atlandılar at belinə. Dava başladı, nə

başladı. Qılınclardan şimşək qopdu. Analar, bacılar da kişi paltarı geyib, qılınc götürüb döyüşə yollandılar. Bircə günün içində düşməni məğlub etdilər.

Səhərciyə yekun vurduqdan sonra kitabxanaçı uşaqlara beləcə torpağı qorumağı, sevməyi tövsiyə etməlidir. Həmçinin vətənpərvərlik mövzusunda "Nağıl otağı"nda təşkil edilən ucadan oxu azyaşlıların sevimli tədbirlərindəndir. Mirvarid Dilbazinin "Azərbaycanım" şeirinin ucadan oxusunu keçirmək onlar üçün maraqlı olar:

Torpağı – türbət,
Suları - şərbət ,
Günəşi – məlhəm,
Ayrılığı – qəm
Azərbaycanım!
Aranı, dağı,
Tərlan oylağı,
Könlüm çırağı,
Qızılgül bağı
Azərbaycanım!
Ana nəfəsim,
Qaranquş səslim,
Ellim, obalım,
Dağlar havalım
Azərbaycanım.
Qızları dilbər,
Qğulları ər,
Odum, ocağım,
Ana qucağım,
Qalsam həyatım,
Ölsəm torpağım
Azərbaycanım!

Vətənpərvərliklə bağlı uşaq kitabxanalarının "Nağıl otağı"nda mənəvi abidəmiz olan, 1300 ildən də qədim tarixə malik "Kitabi-Dədə Qorqud" dastanının təbliği mövzusunda məktəblilərlə söhbət təşkil etmək olar. Bu dastan balacalarda kökünə sadiqlik, milli adət-ənənələrimizə hörmət kimi hisslər doğurur və onlarin vətənpərvərlik tərbiyəsində başlıca rol oynayır. Salur Qazan, Beyrək, Qaraca Çoban kimi qəhrəmanların simasında qeyrət, cəsarət simvollarına çevrilmiş oğullardan nümunə götürən uşaq və yeniyetmələrimiz milli köklərimizə bağlılıq ruhunda tərbiyə olunurlar. "Kitabi-Dədə Qorqud" dastanındakı "Basatın Təpəgözü öldürdüyü boy" çoxumuza tanışdır. Kitabxanaçı bu boyu aşağı sinif məktəblilər arasında təbliğ edərkən Basatın vətənpərvərliyini, doğma yurduna, elinə, obasına sönməz sevgisini, yağı qarşısında əyilməzliyini və cəsarətini ön plana çəkməlidir. Kifayət qədər şan-şöhrət sahibi olan Basat Təpəgözün üstünə bəlkə getməyə də bilərdi. Ancaq ana yurda məhəbbət, amansız düşmənin qəddarlığı, Oğuz elinin üstünü alan təhlükə onu bu nəhənglə ölüm-dirim mübarizəsinə sövq edir. Ata-anası ağlayıb sızlasa da Basat öz yolundan dönmür. Hətta Oğuz elinin bəylərbəyi Qazan xan da Təpəgözlə savaşın çox qorxulu olduğunu Basata anlatmağa, onu bu yoldan döndərməyə çalışır.

Böyük nəhəng oldu Təpəgöz,
Göydə çevirdim yıxa,
bilmədim Basat!
Böyük qaplan oldu Təpəgöz,
Uca dağlarda fırlandıq, yıxa,
bilmədim, Basat!
Ağsaqqallı atanı ağlatma!
Ağbirçəkli ananı zarıldatma!

Bu sözlərdən real təhlükənin nə qədər qorxulu olduğu anlaşılır. Çünki bütün oğuz elinin dövləti, "ümmət

soyunun aslanı, qalmış yigit arxası" kimi tanınan Qazan xan belə Təpəgözün qarşısında acizliyini bildirir.
Kitabxanaçı nağıl otağında uşaqların diqqətini misralara cəlb edərək, Basatın nə qədər cəsarətli və təhlükəli bir addım atdığını, fəqət bu addımın nəcib bir məqsədlə - xalq, doğma yurd və onun övladları naminə atıldığını qeyd etməli, gənc nəslə vətənpərvərlik tərbiyəsi aşılamalıdır.Vətənpərvərlik tərbiyəsinin ən mühüm amillərindən biri doğma ana dilimizi gələcəyin vətəndaşlarına sevdirməkdən ibarətdir. Xalqımızın folklorla yoğrulmuş təfəkkür süzgəcindən keçərək cilalanan və bu gün milyonlarla azərbaycanlının mənəvi sərvətinə çevrilən doğma dilimiz haqqında ulu öndərimizin bir kəlamında deyilir: "Öz ana dilini bilməyən adamlar şikəst adamlardır". Bunu nəzərə alaraq kitabxanaçı uşaqlarla dilimiz haqqında söhbətlər aparmalı, onlara ana dilimizi bütün dillərdən üstün tutmağı tövsiyə etməlidir.

Məktəbli oxucular yetkinlik astanasında olarkən hər bir addımını fikirləşir, onu əhatə edən mühitin, həyat hadisələrinin təsirinə qapılırlar. Onlar daha çox bədii ədəbiyyat oxuyur, öz ideallarını əsərlərdə axtarırlar. Onların marağını nəzərə alıb kitabxanaçılar uşaqlara Babək, Cavanşir, Koroğlu, Nəbi, Həzi Aslanov, Mehdi Hüseynzadə, Hüseynbala Əliyev, Çingiz Mustafayev, Salatın Əsgərova, Əlif Hacıyev, Fərid Əhmədov, Mübariz İbrahimov və digər qəhrəmanların həyatından, keçdikləri döyüş və mübarizə yollarından, qəhrəmanlar haqqında çoxlu əsərlərən yazilmasindan bəhs etməli, hərbi vətənpərvərliyə aid kitabların oxunmasını tövsiyə etməlidir ki, onlar Vətənə sədaqət ruhunda böyüsünlər, Vətən, xalq uğrunda çalışmağı ən ümdə vəzifə hesab etsinlər. Oxucular belə kitabları oxuduqda igidlik, qəhrəmanlıq haqqında geniş məlumatlanacaq, Vətənə daha da sadiq olacaqlar. Eyni

zamanda onlarda nəcib əxlaqi keyfiyyətlər yaranacaqdır. Vətən yolunda qəhrəmanlıq göstərmək ideyası onları həmişə düşündürəcəkdir. Kitabxanada hərbi vətənpərvərliyə aid kitabları oxuculara tövsiyə etmək üçün **"Əziz oxucular! Sizin üçün hərbi vətənpərvərlik kitablar həftəsi"** başlığı altında sərgi və müsabiqə keçirmək olar. Sərgidə nümayiş olunan kitablar oxuculara mütaliə üçün verilməlidir. Həftənin sonunda ən çox mütaliə edən oxucu kitabxana müdiriyyəti tərəfindən **"Əsl vətənpərvər oxucu"** diplomu ilə mükafatlandırıla bilər.

Kitabxanada uşaqların hərbi vətənpərvərlik ruhunda tərbiyə edilməsində söhbət ən təsirli vasitələrdəndir. Kitabxanaçı gündəlik iş prosesində bu tədbirdən geniş istifadə etməlidir. Söhbət elə qurulmalıdır ki, oxuculara təsir etsin, onları həyəcanlandırsın. Uşaqlar müharibənin dəhşətlərini gözləri qarşısında canlandıra bilsinlər. Məsələn, Sevinc Nuruqızının "Qisas" povesti Dağlıq Qarabağ müharibəsinin dəhşətlərini gözləriylə görmüş, ermənilər tərəfindən işgəncələrə dözən ana və balanın taleyindən bəhs edir. "Qisas" povestindən söhbət apararkən kitabxanaçı obrazı elə təsvir etməlidir ki, o oxucunun gözləri qarşısında canlansın, qəhrəmanın daxili aləmi ilə yaşasın. Bu söhbət kitaba marağı artıracaq, oxucular arasında təbliği genişlənəcəkdir.

Viktorinaların təşkili orta və böyük yaş qrupuna aid oxucular üçün daha əhəmiyyətli olar. Viktorinanın suallarını təqdim edirik:

1. Azərbaycan Respublikasının ərazisi neçə kv km-dir? – 86 000 kv.km.
2. Azərbaycan Respublikasının Dövlət Bayrağının üzərindəki rənglər nəyin simvoludur? – Mavi- türkçülüyün, qırmızı- müasirlik və demokratiyanın, yaşıl- islamın.

3. Azərbaycan Respublikasının Dövlət Gerbinin üzərindəki simvollar nəyi bildirir? – Qalxan və ulduz sağanaqları Vətənimizin cənnət məskəni olmasını, alov – odlar yurdunu, palıd yarpaqları – uzunömürlülüyün və möhkəmliyin, sünbül – bərəkət və bolluğun rəmzidir. Simvollar "müharibə istəmirik, lakin hər cür hücumdan müdafiə olunmağa hazırıq" fikrini ifadə edir.
4. Azərbaycanı 2 hissəyə bölən müqavilə hansıdır? – Türkmənçay.
5. Azərbaycan xalqının ana kitabı – "Kitabi-Dədə Qorqud" dastanı nə vaxt yaranıb? – VII-IX əsrlərdə.
6. Azərbaycan Milli Qəhrəmanlarından kimləri tanıyırsınız? - Çingiz Mustafayev, Allahverdi Bağırov, Əlif Hacıyev, Vüqar Hüseynov, Məhərrəm Seyidov, Əsəd Əhmədov, Şirin Mirzəyev, Fərid Əhmədov, Mübariz İbrahimov və başqaları.
7. Bu qəhrəmanlar haqqında yazılmış hansı kitablar var? – İ.İbadoğlu "Sərkərdə", A.Kərimli. "Zəngilan şəhidləri", S.Müslümqızı "Qar üstünə qan yağırdı", "Xocalı uşaqları- qan içində qar çiçəyi", B.Səmədov, S.Aslanov "Təki Vətən yaşasın", M.Süleymanov "Milli Qəhrəmanlar", E.Elatlı "Qisas gecəsi", "Cəhənnəmdən gələn səs", G.Pənah "Qarabağ dərdi", M.Çəmənli "Mübariz" və s.
8. Azərbaycan torpağının işğal olunmuş şəhər və rayonları hansılardır? – Xankəndi, Xocalı, Şuşa, Laçın, Xocavənd, Kəlbəcər, Ağdərə, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan.
9. Qarabağ müharibəsi nə vaxt başlamışdır? – 1988-ci ilin fevralında.
10. Azərbaycanlılara qarşı ermənilər tərəfindən ən dəhşətli soyqırım faciəsi nə vaxt törədilmişdir? – 1918-ci ilin martında.

11. Böyük Vətən müharibəsi illərində neçə nəfər azərbaycanli Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür? – 23 nəfər.
12. Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseyzadədən bəhs edən filmin adı nədir? – “Uzaq sahillərdə”.
13. “Sizi dünyalar qədər sevirəm” bədii filmi kimə həsr olunub? – Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanova.
14. Heydər Əliyev ikinci dəfə siyasi hakimiyyətə neçənci ildə qayıtmışdır? –
    1993-cü il 3 oktyabr.
15. “Əsgər marşı”nın musiqisi kimindir? – Cavanşir Qulieyvin.
16. “Vətən mənə oğul desə nə dərdim,
    Mamır olub qayasında bitərdim” misralarının müəllifi kimdir? – Xalq şairi Məmməd Arazın.

Sualların sayını artırmaq da olar. Sualları düzgün cavablandıran oxucular müxtəlif hədiyyələrlə mükafatlandırıla bilər.

Uşaqlar gördüyü, eşitdiyi, müşahidə etdiyi hadisələri müzakirə etməyə, ona öz münasibətini bildirməyə daha çox cəhd edirlər. Kimin doğru, kimin səhv, kimin pis, kimin isə yaxşı hərəkət etdiyini öyrənmək istəyirlər. Uşaqlar ictimai-siyasi hadisələrə də etinasız yanaşa bilmir. Xoşbəxtlik, qəhrəmanlıq, ədalət və s. haqqında mübahisə etməyə, fikrini bildirməyə, öz sözünü deməyə çalışır. Bu məsələlərin düzgün təhlil edilməsi və başa düşülməsində təşkil olunan disputların böyük əhəmiyyəti vardır. “Kimə qəhrəman deyirik” adlı disputun keçirilməsi daha məqsədəuyğun olar. Disput kitabxanaçının qısa müsahibəsi ilə başlanmalıdır. O, müzakirə ediləcək mövzunu oxuculara bildirməlidir. Daha sonra oxucular çıxış etməlidir. Belə tədbirlərdə oxucular öz bilik dairələrini və təfəkkürlərini daha da zənginləşdirə bilirlər. Tədbirin sonunda maraqlı çıxışla öz obyektiv fikrini bildirən oxucu kitabxanaçı tərəfindən mükafatlandırıla bilər.

Oxucular arasında hərbi vətənpərvərlik mövzusunda "Azərbaycan gəncini necə görmək istərdim" inşa yazı müsabiqəsi və yeniyetmələrin rəsm əsərləri sərgisi keçirmək olar. Milli və hərbi vətənpərvərlik mövzusunda müsabiqələrin daha da genişlənməsi oxucuların marağını və bu istiqamətdə biliklərini artırır.

Hərbi vətənpərvərlik hissinin oxuculara aşılanması üçün uşaq kitabxanalarında Milli Ordunun əsgər və zabitləri ilə görüşlər keçirmək yaxşı olar. Görüşdə əsgər və zabitlər uşaqlara göstərdikləri şücaətdən, azğın düşmənlə necə vuruşduqlarından bəhs etməli, oxucular tərəfindən vətənpərvərlik mövzusunda şeirlər söylənilməli, nəğmələr oxunmalıdır. Belə görüşlərin keçirilməsi onlarda Azərbaycan əsgəri olmaq və vətənin keşiyində dayanmaq hissini bir daha gücləndirər.

Böyük yaşlı oxucuların yaşını və zövqünü nəzərə alıb kitabxanada guşə təşkil etmək yerinə düşər. Çünki guşə sərgiyə nisbətən geniş olur. Guşədə kitabdan başqa qəzet və jurnal məqalələri, ədəbiyyat tövsiyə siyahıları, mövzuya uyğun şəkillər nümayiş olunur. Guşənin birinci hissəsini ulu öndər Heydər Əliyevə həsr etmək olar. Çünki məktəblilərin vətənpərvərlik tərbiyəsində ən başlıca yeri görkəmli şəxsiyyət, müdrik və aqil bir insan, Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi sahəsində böyük xidmətləri olan ulu öndər Heydər Əliyevin həyatı, fəaliyyəti və ömür yolunun mənalı səhifələrinin vərəqlənməsi tutur. Bu böyük insanın simasında vətənə məhəbbətin, torpağa bağlılığın, vətənpərvərliyin gözəl nümunələrini görən oxucuların hər biri bu böyük şəxsiyyətdən əxlaqi keyfiyyətlər əxz edirlər. Nəticədə oxucular özlərini Azərbaycanın layiqli vətəndaşı sayır, özlərində onun müdafiəsinə hazır olduqlarına əminlik yaradır. Bir vətənpərvər şəxsiyyət kimi kitabxanada ulu öndərə həsr edilən "Biz qalib gələcəyik!" başlığı ilə poeziya gecəsi də keçirmək olar.

Poeziya gecəsində öncə aparıcı ulu öndərin həyat və fəaliyyətindən, Azərbaycan Respublikasının azad, müstəqil bir dövlət kimi tanınmasında gördüyü işlərdən danışmalı, sonra ona həsr olunmuş şeirlər dinlənilməlidir. Bundan əlavə. "Heydər Əliyev və müstəqil Azərbaycan" mövzusunda rəsm müsabiqəsi keçirilə bilər. Müsabiqənin vaxtı bitdikdən sonra oxucuların rəsmlərinin sərgisi keçirilməli və münsiflər heyəti tərəfindən qaliblər müəyyənləşdirilməli və mükafatlandırılmalıdır.

Azərbaycan şifahi xalq və yazılı ədəbiyyatı daim xalqın, xüsusilə uşaq və yeniyetmələrin vətənpərvər kimi formalaşmasinda mühüm rol oynamışdir. Kalssiklərimiz Mirzə Fətəli Axundovun maarifçilik ənənələri, Cəlil Məmmədquluzadə, Seyid Əzim Şirvani, Mirzə Ələkbər Sabir, Cəfər Cabbarlı, Səməd Vurğun və digərlərinin yaradıcılığındakı vətənpərvərlik prinsipləri həmişə uca tutulmalıdır. Belə ki, bu klassiklərimizin əsərləri əsasında "Torpaq, uğrunda ölən varsa, Vətəndir", "Vətən daşı olmayandan, olmaz ölkə vətəndaşı", "Vətəndaşlıq borcumuz" və s. mövzularda oxucu konfransı, müzakirələr, ədəbi-bədii gecələr hazırlamaq olar.

Vətənpərvərlik mövzusunda yazılmış kitabların oxucular arasında təbliği üçün daha böyük vaxt tələb edən tədbirlərdən biri oxucu konfransıdır. Oxucu konfransları geniş oxucu kütləsinin dərin marağına səbəb olan tədbirlərdəndir. Müxtəlif yazıçıların vətənə, qəhrəmanlara aid əsərləri ilə bağlı oxucu konfranslarının keçirilməsi əhəmiyyətlidir. Oxucu konfransının keçirilməsinə 1,5-2 ay qalmış mövzu seçilməli, hazırlıq işləri görülməlidir. Kitabxanaçı konfransda iştirak edəcək hər bir oxucunu ədəbiyyatla təmin etməlidir. Məsələn: Elxan Elatlının "Qisas gecəsi" əsəri üzrə oxucu konfransının keçirilməsi mövzuya daha uyğun gəlir. Konfransın daha maraqlı və səmərəli keçməsi üçün kitabxanaçı tədbirə bir ay qalmış

kitabı oxuculara təqdim etməlidir. Oxucu konfransına əsərin müəllifini, müəllimləri, zabitləri, müharibə veteranlarını və başqa insanları dəvət etmək olar. Konfransda əvvəlcə kitabxanaçı özü çıxış etməli, əsər haqqında danışmalıdır. Kitabxanaçının çıxışı:

Kitabxanaçı: "Əziz oxucular! Bugünkü konfrans Elxan Elatlının vətənpərvərlik mövzusunda yazılmış "Qisas gecəsi" əsərinə həsr edilb. Bu yazıçının vətənpərvərlik mövzusunda qələmə aldığı üçüncü romanıdır. Bundan əvvəl E.Elatlı vətənpərvərlik mövzusunda "Qan ləkəsi", "Cəhənnəmdən gələn səs" romanlarını yazmışdır. Bu romanlar xalqımızın böyük sevgisini qazanmışdır. Hər hansı bir şəxsiyyətin qəlbərdə uzun illər yaşamasında və sevilməsində bədii əsərlərin nə qədər böyük rola malik olduğunu hamımız yaxşı bılırik. "Qisas gecəsi" romanı Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun qısa həyatından və şərəfli döyüş yolundan bəhs edir. Romanın gənclərimizin hərbi vətənpərvrlik tərbiyəsində böyük rol oynayacağina inanırıq. Kitabın ilk səhifəsində Azərbaycan Respublikasının Prezidentinin Mübariz İbrahimov haqqında dediyi sözlər verilmişdir. "Mübariz yaxşı bilirdi ki, o döyüşdən sağ-salamat çıxa bilməyəcək. Ancaq Vətən sevgisi, torpaq sevgisi, onda olan vətənpərvərlik ruhu onu şəhidlik zirvəsinə ucaltdı. Mübariz bütün gənclərimiz üçün örnəkdir, nümunədir".

Mübariz İbrahimov son döyüşdən sağ qayıtmayacağını yəqin ki bilirdi. Buna görə də bacardığı qədər düşmən əsgəri öldürüb, sonra həlak olmuşdur. Düşmənə xeyli itki verib özü də şəhid olan Mübarizə həsr olunmuş bu kitabı oxumaqla şəhidlərimizin ruhu qarşısında borcumuzun bir hissəsini yerinə yetirmiş olarıq. Yazıçı E.Elatlı Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun iyirmi iki illik ömür yolundan bəhs edən bu romanında onun daxili aləmini, həyacanlarını, mənəvi

dünyasında baş verən oyanışı, onu daim narahat edən, intiqama səsləyən səbəbləri bədii detallarla açıb göstərməyə çalışmışdır.

Kitabxanaçının çıxışından sonra söz konfrans iştirakçılarına verilir. Sonda iştirakçılar gələcəyimiz olan uşaqlar arasında vətənpərvərliyin təbliği mövzusunda müzakirələr aparır, öz təklif və rəylərini bildirirlər.

